# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 127** **Bakı şəhəri, 4 aprel 2022-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Dəniz terminalının operatoru tərəfindən realizə olunan yükün və ona görə hesablaşmaların uçotu Qaydası"nın təsdiq edilməsi haqqında" 2014-cü il 22 dekabr tarixli 396 nömrəli, "Dəniz limanları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi və "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarında dəyişiklik edilməsi barədə" 2015-ci il 8 iyul tarixli 262 nömrəli, "Azərbaycan Respublikasının ərazi sularında üzmə Qaydaları"nın təsdiq edilməsi haqqında" 2015-ci il 8 sentyabr tarixli 296 nömrəli, "Dənizçilik şirkətinin "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olması haqqında Şəhadətnamənin və gəminin "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olması haqqında Şəhadətnamənin forması və verilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2016-cı il 15 avqust tarixli 306 nömrəli, "Balıqçılıq subyektlərinin uçotunun forması və aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2017-ci il 12 may tarixli 202 nömrəli, "Kiçikhəcmli gəmiləri idarə etmək üçün sürücülük vəsiqələrinin verilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2018-ci il 21 sentyabr tarixli 406 nömrəli və "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında***

"Dəniz nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1462 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 dekabr tarixli 396 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 12, maddə 1673; 2019, № 6, maddə 1174) ilə təsdiq edilmiş "Dəniz terminalının operatoru tərəfindən realizə olunan yükün və ona görə hesablaşmaların uçotu Qaydası"nın 2.1-ci bəndində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman" sözləri ilə əvəz edilsin.

**2.** "Dəniz limanları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi və "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respub-likası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 8 iyul tarixli 262 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 893; 2019, № 8, maddə 1466) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə – "Azərbaycan Respublikasının Dəniz Limanları Reyestrinin aparılması Qaydası" üzrə:

2.1.1. 1.2-ci bənddə "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman" sözləri ilə əvəz edilsin;

2.1.2. 3.1-ci bənddə "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi" sözləri "Agentlik" sözü ilə əvəz edilsin və həmin bəndə "nəticələrini" sözündən sonra "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi vasitəsilə" sözləri əlavə edilsin;

2.1.3. həmin Qaydaya 1 nömrəli əlavənin mətnində "AZƏRBAYCAN RESPUBLİKASININ NƏQLİYYAT, RABİTƏ VƏ YÜKSƏK TEXNOLOGİYALAR NAZİRLİYİ YANINDA DÖVLƏT DƏNİZ AGENTLİYİ" sözləri alt-alta "AZƏRBAYCAN RESPUBLİKASININ RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ DÖVLƏT DƏNİZ VƏ LİMAN AGENTLİYİ" sözləri ilə, "THE STATE MARITIME AGENCY UNDER THE MINISTRY OF TRANSPORT, COMMUNICATIONS AND HIGH TECHNOLOGIES OF THE REPUBLIC OF AZERBAIJAN" sözləri alt-alta "MINISTRY OF DIGITAL DEVELOPMENT AND TRANSPORT OF THE REPUBLIC OF AZERBAIJAN STATE MARITIME AND PORT AGENCY" sözləri ilə, "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman" sözləri ilə, "State Maritime Agency under the Ministry of Transport, Communications and High Technologies" sözləri "State Maritime and Port Agency under the Ministry of Digital Development and Transport" sözləri ilə, "Dövlət Dəniz Agentliyinin direktoru" sözləri "Dövlət Dəniz və Liman Agentliyinin İdarə Heyətinin sədri" sözləri ilə və "Director of the State Maritime Agency" sözləri "Chairman of the State Maritime and Port Agency" sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə – "Gəmi agenti haqqında Əsasnamə" üzrə:

2.2.1. 2.3-cü bənddə "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman" sözləri ilə əvəz edilsin;

2.2.2. 4.1.15-ci yarımbənddə "Agentliyin tabeliyində Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Mərkəzinə" sözləri "Agentliyə" sözü ilə əvəz edilsin;

2.3. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə – "Limanlarda gəmi agenti tərəfindən xidmətlərin göstərilməsi üçün sertifikatın forması, qüvvədə olma müddəti, verilmə və ləğv edilmə Qaydası" üzrə:

2.3.1. 2.1-ci bənddə "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman" sözləri ilə əvəz edilsin;

2.3.2. həmin Qaydaya əlavənin mətnində "AZƏRBAYCAN RESPUBLİKASININ NƏQLİYYAT, RABİTƏ VƏ YÜKSƏK TEXNOLOGİYALAR NAZİRLİYİ YANINDA DÖVLƏT DƏNİZ AGENTLİYİ" sözləri alt-alta "AZƏRBAYCAN RESPUBLİKASININ RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ DÖVLƏT DƏNİZ VƏ LİMAN AGENTLİYİ" sözləri ilə, "THE STATE MARITIME AGENCY UNDER THE MINISTRY OF TRANSPORT, COMMUNICATIONS AND HIGH TECHNOLOGIES OF THE REPUBLIC OF AZERBAIJAN" sözləri alt-alta "MINISTRY OF DIGITAL DEVELOPMENT AND TRANSPORT OF THE REPUBLIC OF AZERBAIJAN STATE MARITIME AND PORT AGENCY" sözləri ilə, "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman" sözləri ilə və "State Maritime Agency under the Ministry of Transport, Communications and High Technologies" sözləri "State Maritime and Port Agency under the Ministry of Digital Development and Transport" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 8 sentyabr tarixli 296 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1211; 2016, № 5, maddə 963; 2017, № 5, maddə 972, № 9, maddə 1732; 2019, № 5, maddə 948) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazi sularında üzmə Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.2-ci bənddə "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman" sözləri ilə əvəz edilsin;

3.2. 1.5-ci və 3.2-ci bəndlərdən "tabeliyindəki qurum vasitəsilə" sözləri çıxarılsın;

3.3. 3.7-ci və 18.2-ci bəndlərdə "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin;

3.4. 4.2-ci bənddə "Agentliyin tabeliyində olan qurumun gəmilərin hərəkətini idarə edən operatora" sözləri "Agentliyin gəmilərin hərəkətini idarə edən operatoruna" sözləri ilə əvəz edilsin;

3.5. mətn üzrə ismin müvafiq hallarında "Agentliyin tabeliyində olan qurum" sözləri ismin müvafiq hallarında "Agentlik" sözü ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 15 avqust tarixli 306 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1443; 2019, № 5, maddə 948) ilə təsdiq edilmiş "Dənizçilik şirkətinin "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olması haqqında Şəhadətnamənin və gəminin "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olması haqqında Şəhadətnamənin forması və verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.3-cü bənddə "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman" sözləri ilə əvəz edilsin;

4.2. həmin Qaydaya 1 və 2 nömrəli əlavələrin mətnində "AZƏRBAYCAN RESPUBLİKASININ NƏQLİYYAT, RABİTƏ VƏ YÜKSƏK TEXNOLOGİYALAR NAZİRLİYİ YANINDA DÖVLƏT DƏNİZ AGENTLİYİ" sözləri alt-alta "AZƏRBAYCAN RESPUBLİKASININ RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ DÖVLƏT DƏNİZ VƏ LİMAN AGENTLİYİ" sözləri ilə, "THE STATE MARITIME AGENCY UNDER THE MINISTRY OF TRANSPORT, COMMUNICATIONS AND HIGH TECHNOLOGIES OF THE REPUBLIC OF AZERBAIJAN" sözləri alt-alta "MINISTRY OF DIGITAL DEVELOPMENT AND TRANSPORT OF THE REPUBLIC OF AZERBAIJAN STATE MARITIME AND PORT AGENCY" sözləri ilə, "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyi" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman Agentliyi" sözləri ilə və "STATE MARITIME AGENCY UNDER THE MINISTRY OF TRANSPORT, COMMUNICATIONS AND HIGH TECHNOLOGIES" sözləri "STATE MARITIME AND PORT AGENCY UNDER THE MINISTRY OF DIGITAL DEVELOPMENT AND TRANSPORT" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 12 may tarixli 202 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 973; 2018, № 12 (II kitab), maddə 2722; 2019, № 1, maddə 165) ilə təsdiq edilmiş "Balıqçılıq subyektlərinin uçotunun forması və aparılması Qaydaları"nın 2.1.5-ci yarımbəndində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman" sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 21 sentyabr tarixli 406 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1934) ilə təsdiq edilmiş "Kiçikhəcmli gəmiləri idarə etmək üçün sürücülük vəsiqələrinin verilməsi Qaydası"nın 2.6.3-cü yarımbəndində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman" sözləri ilə əvəz edilsin.

**7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155; 2019, № 3, maddələr 528, 534, 544, 563, 566, 568, № 4, maddə 753, № 5, maddələr 935, 945, 971, № 7, maddə 1325, № 8, maddə 1475, № 10, maddə 1677, № 11, maddə 1878, № 12, maddələr 2091, 2095; 2020, № 3, maddə 344, № 4, maddə 479, № 5, maddə 643, № 6, maddə 784, № 8, maddə 1134, № 9, maddə 1222, № 10, maddə 1273, № 11, maddələr 1403, 1408, № 12 (V kitab), maddələr 1589, 1597; 2021, № 2, maddə 203, № 3, maddələr 278, 288, 293, 300, 302, № 4, maddələr 395, 399, 404, 416, 417, 418, № 6 (IV kitab), maddə 695, № 7, maddələr 871, 874, № 8, maddələr 966, 973, № 9, maddə 1064, № 10, maddələr 1182, 1187, 1192, № 11, maddələr 1256, 1274, 1280, 1283; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 5 yanvar tarixli 1 nömrəli və 15 yanvar tarixli 18 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati təsnifatı"nın 124-cü hissəsində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***